# 5 nömrəli Bakı Peşə Liseyi

Son illər respublikamızda müasir tələblərə cavab verən, yenidən qurulan ilk peşə-ixtisas təhsili müəssisələri var ki, bunlardan biri də 5 nömrəli Bakı Peşə Liseyidir. 1971-ci ildən fəaliyyətə başlayan lisey əvvəllər Bakı Radio Zavodunun nəzdində radio elektronika sahəsi üzrə ixtisaslı kadrlar hazırlayan 6 nömrəli texniki peşə məktəbi kimi fəaliyyətə başlamışdır. 1979-cu ildən tədris ocağının adı dəyişdirilərək 31 nömrəli texniki peşə məktəbi adlandırılmış, 1996-cı ildən etibarən isə indiki adı ilə 5 nömrəli Bakı Peşə Liseyi kimi fəaliyyətini davam etdirməkdədir. Nəzərə çatdıraq ki, 2015-ci ildə liseydə əsaslı təmir işləri aparılmış, maddi-texniki bazası yenilənmişdir. Bununla əlaqədar olaraq 2015-ci il sentyabr ayının 12-də ölkə Prezidenti cənab İlham Əliyev liseydə olmuş, təhsil ocağında yaradılan şəraitlə yaxından tanış olmuşdur.













## Maddi-texniki baza

Lisey 3 mərtəbəli tədris binasından ibarətdir. Liseydə müasir tələblərə cavab verən müxtəlif ixtisaslar üzrə 8 tədris emalatxanası mövcuddur. Bundan başqa, liseydə 41 fənn kabineti, kimya, fizika laboratoriyaları, konfrans zalı, akt zalı, lazımi avadanlıqlarla təchiz olunmuş geniş idman zalı şagirdlərin ixtiyarındadır. Tədris ocağı İKT avadanlıqları ilə də yüksək səviyyədə təmin olunub. Burada 103 kompüter, 20 ədəd notebook və digər İKT avadanlıqları mövcuddur. Liseydə yüksək səviyyədə müasir kitabxana fəaliyyət göstərir. Kitabxanada 5498 nüsxə dərslik və 1276 nüsxə bədii ədəbiyyat var.



## Tədrisin təşkili

Lisey birnövbəlidir. Təlim Azərbaycan dilində aparılır. 2013-cü ildən liseyə təhsil sahəsində böyük təcrübəyə malik, "Tərəqqi" medallı Fikrət Nəbiyev rəhbərlik edir. F.Nəbiyevin liseyə rəhbərlik etdiyi dövrdən başlayaraq tədris ocağı dinamik inkişaf mərhələsindədir. Liseydə 10 ixtisas - bərbər, dərzi, dülgər, elektrik qaz qaynaqçısı, elektroquraşdırıcı-sxemçi, aşpaz, mühafizəçi, əməliyyatçı mühasib, kompüter operatoru, inşaat rəngsazı peşələri üzrə 441 nəfər şagird təhsil alır. Qeyd edək ki, 2016-2017-ci tədris ilindən başlayaraq liseydə turizm sahəsi üzrə yeni ixtisaslar - mehmanxana inzibatçısı, oteldə konsiyerj (qonaqlara məlumat verən və xidmətlərin satışını təşkil edən), mehmanxanada təsərrüfat işləri üzrə nəzarətçi, mehmanxanada təmizlik xidməti üzrə menecer, landşaft dizayner, ofisiant - barmen - bufetçi, qənnadçı şirniyyatçısı, uşaq masajçısı ixtisasları üzrə ixtisaslı kadrlar hazırlanacaq.

Liseydə şagirdlərin təlim-tərbiyəsi ilə 80 nəfər mühəndis-pedaqoji heyət məşğul olur. XXI əsr Azərbaycan təhsili tariximizə təhsil sistemini yeniləşdirmək, onu dünya təhsil standartlarına uyğunlaşdırmaq əsri kimi daxil olmuşdur. Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Bu gün liseyin bütün fənn kabinetləri proyektorlarla, ağıllı lövhələrlə təchiz olunmuşdur. Bütün bunları nəzərə alaraq liseydə dərslərin yeni təlim üsulları ilə keçirilməsi, nəzəri təlim və istehsalat təlim dərslərində yeni texnologiyalardan, interaktiv qurğulardan istifadə edilməsi müəllimlərin qarşıya qoyulan məqsədə səmərəli yolla nail olmasına səbəb olur. Liseydə daxili nəzarət planına əsasən tədrisin keyfiyyətini yüksəltmək, kurikulum təminatını genişləndirmək, gənc müəllimlərin peşəkarlıq səviyyəsini yüksəltmək məqsədilə "açıq dərs"lər keçirilir. Keçirilən "açıq dərs"lər liseyin metodiki komissiyası tərəfindən müzakirə edilir və müəllimlərə lazımi tövsiyələr verilir. Tədris ocağında dərsə davamiyyət daim nəzarətdə saxlanılır. Gündəlik davamiyyət faizi yüksək olur. Liseydə şagirdlərin vətənpərvərlik hissinin yüksək olması üçün hər gün səhər toplantısı keçirilir. Ənənəvi haldan fərqli olaraq toplantını hərbi forma geyinmiş qız şagird idarə edir və Azərbaycan Respublikasının Dövlət himni hər gün şagirdlər tərəfindən canlı ifa olunur. Liseydə həmçinin şagirdlərin asudə vaxtlarından səmərəli istifadə etmələri və zərərli vərdişlərdən uzaq olmaları üçün bədii qiraət, rəqs və idmanın müxtəlif növləri üzrə dərnəklər fəaliyyət göstərir.

## Tədbirlər

Təhsil ocağında mütəmadi olaraq tarixi hadisələr və əlamətdar günlərə həsr olunmuş tədbirlər keçirilir. Liseydə keçirilən belə tədbirlər şagirdlərdə elmə, təhsilə marağın artmasına və vətənpərvərlik hissinin daha da güclənməsinə səbəb olur. Bu tədris ilində 9 noyabr - Bayraq Gününə həsr olunan "Dalğalan üçrəngli bayrağım", ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş "Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi", 20 Yanvar faciəsinə həsr olunmuş "Azadlığa aparan yol", Xocalı faciəsinə həsr olunmuş "Xocalıya ədalət-gələcək üçün ibrət" mövzusunda ədəbi-bədii gecə, aprel ayının əvvəllərində ordumuzun apardığı uğurlu hərbi əməliyyatlara dəstək aksiyası çərçivəsində Milli Məclisin bir qrup deputatının iştirakı ilə Xətai rayon gəncləri ilə görüş, ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Ordun varsa yurdun var, ordun yoxsa yurdun yox" adlı hərbi vətənpərvərlik mövzusunda keçirilən tədbirləri sadalamaq olar. Bundan başqa, liseydə mütəmadi olaraq xeyriyyəçilik və maarifləndirici tədbirlər də keçirilir. Bunlardan "Narkomaniya bəşəriyyətin bəlasıdır", "Qadın cəmiyyətin güzgüsüdür" və dövlət atributlarına hörmət mövzusunda tədbirləri misal göstərmək olar.

Lisey 3 nömrəli xüsusi internat məktəbində təhsil alan və sağlamlıq imkanları məhdud olan uşaqları daim diqqət mərkəzində saxlayır. Liseyin "Bərbər" ixtisasında təhsil alanlar vaxtaşırı olaraq həmin məktəbdə olur, şagirdlərin saç düzümlərini səliqəyə salır. Bundan başqa bu il liseydə keçirilən Novruz şənliyinə həmin məktəbin şagirdləri qonaq qismində dəvət edilib. Onlar üçün Novruz atributlarından ibarət sovqat bağlamaları hazırlanıb. Liseyin şagirdləri tərəfindən təşkil olunan bayram konserti də həmin uşaqlarda xoş təəssüratlar yaradıb.

## Yeni layihələr

Son illər Təhsil Nazirliyi tərəfindən aparılan uğurlu siyasət nəticəsində ilk peşə-ixtisas təhsilinin inkişafı istiqamətində mühüm layihələr həyata keçirilir. Belə layihələri uğurla həyata keçirən liseylərdən biri də 5 nömrəli Bakı Peşə Liseyidir. Nəzərə çatdıraq ki, 2013-cü ildən etibarən liseydə ilk peşə-ixtisas təhsilinin infrastrukturunun inkişafına yönəldilən Müasir Azərbaycan Peşəkarları Layihəsinin icrasına başlanılıb. Hazırda tədris ocağında layihəyə daxil olan peşələr üzrə ixtisaslı kadrlar hazırlanır. Bundan başqa, liseydə 2014-cü ildə Müasir Azərbaycan Peşəkarları Layihəsi çərçivəsində yeni mühafizəçi peşəsi üzrə kurslar təşkil olunmuş, bu kurslarda təhsil alan müdavimlər yüksək tələblərə cavab verən tədris otaqları, xüsusi tədris proqramları ilə təmin olunmuş və böyük təcrübəsi olan təlimçilər tərəfindən təlimlər keçmişlər. Təlimi başa vuran müdavimlərə sertifikatlar təqdim olunmuşdur.

2015-ci ilin aprel ayında Təhsil Nazirliyi ilə "Abşeron Hotel Group" MMC arasında razılaşmaya əsasən, 5 nömrəli Bakı Peşə Liseyində ekspertlər tərəfindən beynəlxalq standartlara uyğun təlimlər keçirilib. Bu təlimlərin məqsədi "Bakı - 2015" I Avropa Oyunlarının keçirilməsi ərəfəsində paytaxtda istifadəyə veriləcək yeni beşulduzlu "Bulvar Hotel" və "İnturist Hotel" mehmanxanaları üçün kadr ehtiyatı yaratmaq idi. Layihənin təqdimat mərasimində çıxış edən təhsil naziri Mikayıl Cabbarov bu layihənin turizm-xidmət sahəsinin kadrlarla təmin olunmasına böyük töhfə verəcəyini vurğulamışdır.

2015-ci il oktyabr ayının 13-də Təhsil Nazirliyinin "British Council" və "Abşeron Hotel Group" MMC ilə birgə layihəsi əsasında liseydə ilk dəfə olaraq mehmanxana inzibatçısı ixtisası üzrə kadrların hazırlanmasına dair yeni pilot layihənin təqdimat mərasimi keçirilib. Bu layihənin həyata keçirilməsində məqsəd turizm sahəsinin inkişafını nəzərə alaraq mehmanxana inzibatçısı ixtisası üzrə ixtisaslı kadrların hazırlanmasını həyata keçirməkdən ibarət idi.

2015-ci ilin dekabr ayında texniki peşə təhsili və təliminin inkişafına dəstək məqsədilə "British Council" və Azercell telekom MMC-nin dəstəyi ilə "İş dünyası" üzrə bacarıqlar" layihəsi çərçivəsində təlimlər keçirilmiş, bu təlimlərdə liseyin 4 nəfər müəllimi iştirak edərək sertifikat almışdır. 2016-cı ilin aprel-may aylarında Azərbaycan Respublikası Təhsil Nazirliyi, Norveç Krallığının Roqaland Təlim və Təhsil Mərkəzinin birgə layihəsi əsasında "Biznesin qurulması, sahibkarlığa dair təlimat" və " Rəqəmsal alətlərin təhsildə tətbiqi" layihəsi əsasında liseydə təlimlər keçirilib. Liseyin 3 müəllimi bu təlimlərdə iştirak edərək sertifikat alıb.

## Nailiyyətlər

Tədris ocağı fəaliyyətə başladığı tarixdən bu günə qədər bir sıra uğurlara imza atmışdır. Belə ki, 2001-ci ildə "İlin ən yaxşı peşə təhsili müəssisəsi" adı uğrunda keçirilən respublika müsabiqəsinin qaliblərindən olmuş və II dərəcəli diploma layiq görülmüşdür. Liseyin fəxrlə adını dilə gətirəcəyi layiqli məzunları olmuşdur ki, bunlardan biri də hazırda Azərbaycan Pauerliftinq Federasiyasının prezidenti Ələddin Əliyevdir.

Təhsil ocağının şagirdləri respublikamızda keçirilən bir sıra müsabiqə və yarışlarda liseyin adını şərəflə qoruyurlar. Belə ki, 2015-ci ilin may ayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş inşa yazı müsabiqəsində liseyin 3-cü kurs tələbəsi Xanım Allahyarlı peşə liseyləri arasında I yerin qalibi olmuşdur.

Liseyin şagirdləri idman yarışlarında da bir sıra uğurlar qazanmışlar. Belə ki, 2014-cü ildə respublika ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında keçirilən futbol yarışlarında liseyin komandası I yerin qalibi olmuşdur. 2015-ci il voleybol yarışlarında qızlardan ibarət komanda 1-ci yerin, oğlanlardan ibarət komanda isə 2-ci yerin qalibi olmuşlar. Bundan başqa, 2015-ci ilin noyabr ayında liseydə ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında Azərbaycan Respublikası Təhsil Nazirliyi, Respublika Bədən Tərbiyəsi və İdman Mərkəzinin təşkilatçılığı ilə Milli Dirçəliş Gününə həsr olunmuş minifutbol yarışı keçirilib. Bu yarışda liseyin oğlanlardan ibarət komandası I yerin qalibi olub. 2016-cı ilin mart ayında Təhsil Nazirliyi, Respublika Bədən Tərbiyəsi və İdman Mərkəzinin təşkilatçılığı ilə liseydə ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında (qızlar və oğlanlar) idmanın basketbol növü üzrə yarışlar keçirilib. Yarışlarda liseyin qızlardan ibarət komandası I yerin qalibi olub. 2016-cı ilin 8 aprel tarixində ilk peşə-ixtisas təhsili müəssisələrinin şagirdləri arasında Respublika İfa müsabiqəsinin rəqs nominasiyası üzrə zona mərhələsi keçirilib. Bu müsabiqədə liseyin 2-ci kurs tələbəsi Məngülə İslamova Azərbaycanın qədim xalq musiqisi "Turacı" rəqsinə görə II yerin qalibi seçilib və fəxri fərmanla təltif olunub. 2016-cı ilin 11 aprel tarixində Göygöl rayonunda keçirilən kikboksinq üzrə Azərbaycan çempionatında liseyin I kurs tələbəsi Ruslan Əliyev I yerin qalibi olmuşdur.

Bu gün təhsil müəssisələrində təhsilalanların savadlı və səriştəli bir şəxs kimi formalaşması müəllimlərin bilik və bacarıqlarından, peşəkarlıq səviyyəsindən asılıdır. Təhsil müəssisələrində çalışan qabaqcıl, səriştəli müəllimlərin əməyi həmişə qiymətləndirilmişdir. Sevindirici haldır ki, 2015-ci ildə liseyin 2 nəfər müəllimi 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə gənc nəslin təlim-tərbiyəsi sahəsində səmərəli pedaqoji fəaliyyətinə görə Təhsil Nazirliyinin Fəxri fərman ilə təltif olunmuşdur.

**Niyazi RƏHİMOV,**
*"Azərbaycan müəllimi"*